# Xocalı soyqırımı–unudulmaz faciə

## Xocalı soyqırımının iyirmi üçüncü ildönümünə həsr olunmuş ümumrayon tədbiri keçirilmişdir

Azərbaycan xalqı davamlı olaraq erməni millətçi-şovinistlərinin etnik təmizləmə, soyqırım siyasətinə məruz qalmış, öz tarixi torpaqlarından qovularaq, qaçqına, məcburi köçkünə çevrilmiş və bütün bunlar kütləvi qırğınlarla müşayət olunmuşdur.

XX əsrin faciəsi olan Xocalı soyqırımı isə təkcə Azərbaycan xalqına deyil, bütün insanlığa, bəşəriyyətə qarşı yönəlmiş ən ağır cinayətlərdəndir. Dünyada qəbul olunmuş beynəlxalq konvensiyalar, ümumbəşəri qanunlar Xocalı faciəsini pisləyir, yolverilməz olduğunu bildirirlər.



1992-ci ilin fevral ayının 25-dən 26-na keçən gecə erməni vandallarının Xocalıda törətdiyi bu qətliamın iyirmi üçüncü ildönümü ilə əlaqədar Qəbələ ictimaiyyətinin ümumrayon anım tədbiri keçirilmişdir. Tədbirdə rayon icra hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayev, Qəbələdə məskunlaşan Xocalı ailələrinin üzvləri, rayonun əmək kollektivləri, ağsaqqallar və ictimaiyyətin nümayəndələri iştirak etmişlər.

Tədbir iştirakçıları əvvəlcə Şəhidlər Xiyabanında qətliam qurbanlarının xatirəsinə ucaldılmış abidənin önünə gül dəstələri qoymuş, sonra torpaqlarımızın müdafiəsi zamanı həlak olmuş Qəbələ şəhidlərinə öz ehtiramlarını bildirmişlər. Mərasimdə çıxış edən rayon icra hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayev demişdir ki, bu soyqırım nəticəsində 63-ü uşaq, 106-ı qadın, 70-i qoca olmaqla 613 nəfər Xocalı sakini qətlə yetirilmiş, 8 ailə tamamilə məhv edilmişdir. 25 uşaq hər iki valideynini, 130 usaq valideynlərindən birini itirmişdir. Düşmən gülləsi ilə yaralanan 487 nəfərdən 76-sı uşaq olmuşdur. 1275 xocalı əsir, 150 xocalı itkin düşmüşdür. Dövlətin və əhalinin əmlakına 1 aprel 1992-ci il tarixinə olan qiymətlərlə 5 milyard rubl dəyərində ziyan vurulmuşdur. Natiq vurğulamışdır ki, hazırda bir çox ölkələrin parlamentlərində qətliam qurbanları anılır, müzakirələr aparılır, universitetlərdə mühazirələr oxunur, müxtəlif televiziya kanallarında verilişlər, diskussiyalar təşkil edilir. Çıxışının sonunda RİH başçısı ölkə rəhbərliyinin və beynəlxalq təşkilatların birgə



səyləri nəticəsində Azərbaycanın ərazi bütövlüyünün təmin olunacağına, qaçqınların və məcburi köçkünlərin doğma yurd-yuvalarına qayıdacağına əminliyini bildirmişdir.

Anım tədbiri "Qəbələ Qtel"-də təşkil olunan çay süfrəsi ilə davam etdirilmişdir. Burada şəhidlərimizin ruhuna Qurani-Kərimdən ayələr oxunmuş, dualar edilmişdir.

**Oqtay MƏMMƏDOV.**
**Fotolar S. Umuyevindir.**

## XX əsrin faciəsi

Fevral ayının əvvəllərindən Xocalı soyqrımının 23-cw ildönümü ilə əlaqədar olaraq, Heydər Əliyev Mərkəzində "Xocalı faciəsi—əsrin faciəsi" adlı tədbirlərə start verilmişdir. Mərkəzdə dərs keçən şagirdlərə əsrin faciəsi barədə mühazirələr oxunmuş, ekskursiyalar təşkil edilmişdir. Həmçinin şəhər məktəblərinin tarix dərslərində iştirak edən əməkdaşlarımız şagirdlərə bu faciə ilə bağlı məlumatlar vermiş, dövlətimizin bu faciəni dunyaya çatdırmaqda gördüyü tədbirlərdən danışmışlar.

19—20 fevral tarixlərində Heydər Əliyev Mərkəzinin əməkdaşları şəhər 3 saylı və 4 saylı tam orta məktəblərində olmuşlar. Mərkəzin kiçik elmi işçisi Sədaqət Kazımova Azərbaycan Respublikası Milli Məclisinin 1994-cü il 24 fevral tarixli qərarı ilə 26 fevral "Xocalı soyqırımı və milli matəm günü" elan edilməsini, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1994-cü il martın 1-də Xocalı soyqırımı qurbanlarının ailələrinə müraciətində bu soyqırımı eyni zamanda bütün bəşəriyyətə qarşı yönəldilmiş tarixi cinayət kimi səciyyələndirilməsini diqqətə çatdırmış və şagirdlərə broşürlər paylamışlsr.

**Heydər Əliyev Mərkəzi.**

## Doğma torpaqlarımıza dönəcəyik

O qanlı, dəhşətli fevral gecəsindən 23 il ötür. 23 ildir ki, Xocalının gözü yoldadır. 23 ildir Xocalının dağları,düzləri qanlı bənövşələr bitirir. 23 ildir Xocalı əhli o müqəddəs günü—doğma torpağa dönəcək günü gözləyir.

Qanlı faciənin ildönümü bütün Azərbaycanda qeyd olunur. Bu münasibətlə Qəbələ Rayon Təhsil Şöbəsi ilə N. Apayev adına 4 saylı tam orta məktəblə birlikdə tədbir keçirildi.



Tədbirin əvvəlində Xocalı şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Sonra bu faciənin tarixi, baş vermə səbəbləri və onun ağır nəticələri barədə məlumat verildi. B. Vahabzadənin "Şəhidlər" poeması əsasında hazırlanmış ədəbi-bədii kompozisiya tamaşaçılara duyğulu anlar yaşatdı. Xüsusilə hərbi geyimdə çıxış edən şagirdləri gördükdə vətənpərvər gəncliyin yetişdiyinə əmin olduq. Sonra Xocalı faciəsinin dəhşətləri bir daha anıldı.

Məktəbin direktoru Q. Musayeva, təhsil şöbəsi metodkabinetinin müdiri A. Bayramova, metodist T. İsayeva tədbirdə çıxış etdilər. Tədbirin sonunda "Xocalı" filmindən fraqmentlər, dəhşətləri əks etdirən şəkillər nümayiş etdirildi.

**V. İBRAHİMLİ,**
**məktəbin dil-ədəbiyyat müəllimi.**
**Foto S. Umuyevindir.**

## Ermənistanın işğalçılıq siyasəti pislənilmişdir

Qəbələ şəhər yeni məscidində Xocalı soyqırımı qurbanlarının xatirəsinə həsr olunmuş tədbiri rayon cümə məscidi imamının köməkçisi Laçın Ağalarov açmışdır. Sonra rayon məscidi imamının müavini Saleh Şirinov Xocalı soyqırımının başvermə səbəbləri, erməni ekstermistlərinin zaman-zaman Azərbaycanın tarixi torpaqlarının işğalı ilə əlaqədar yeritdikləri siyasət barədə geniş məruzə etmişdir.



Tədbirdə Qəbələ rayon icra hakimiyyətinin məsul işçisi Ramil Qəribov, Şuşa nümayəndəsi, müəllim Əhəd Həsənov, Xocalı sakinləri Mətləb Cəfərov Cavanşir Məmmədov və başqaşları çıxış edərək işgalçı və terrorcu Ermənistanın siyasətini pisləmiş və dünya ictimaiyyətini erməni qəsbkarlarının yeritdikləri bu siyasətin qarşısını almağa, habelə onları Azərbaycanın əzəli torpaqlarının işğal zamanı ələ keçirdikləri ərazilərin geri qaytarılmasına çağırmışlar.

Sonda Xocalı soyqırımı qurbanlarının ruhuna Qurani-Kərimdən ayələr oxunmuşdur.

**Fərzalı ALIYEV,**
**Vəndam qəsəbə məscidinin imamı.**
**Foto S. Umuyevindir.**

## Qan yaddaşımızı unutmayaq

Rayon Mərkəzi Kitabxana Sisteminin (MKS) 1 saylı şəhər filalında Xocalı faciəsinin 23-cü ildönümü münasibəti ilə "Qan yaddaşımızı unutmayaq" adlı anım tədbiri keçirildi. Tədbirdə P. Osmanov adına 2 saylı tam orta məktəbin IV «a», V «b», VI «a», VII «a» sinif şagirdləri, uşaq şöbəsinin müdiri Sevda İsrayılova, mərkəzi kitabxananın direktoru Ramiz Mirzəyev, Qəbələ şəhər P. Osmanov adına 2 nömrəli tam orta məktəbin direktoru Təranə Səlimova və mərkəzi kitabxananın digər işçiləri də iştirak edirdi. Tədbiri filial kitabxananın müdiri Zeynəb Hacıyeva açdı. Tədbirdə 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalı şəhərində baş vermiş hadisələr barədə baş kitabxanaçı Aqibət Babayeva geniş məlumat verdi. Daha sonra 2 saylı tam orta məktəbin şagirdləri Xocalı şəhidlərinin xatirəsinə həsr edilmiş şeirlər söylədilər və ədəbi-bədii kompozisiyalar nümayiş etdirdilər.

Tədbir MKS-nin direktoru Ramiz Mirzəyevin çıxışı ilə yekunlaşdı.

* * *

Turizm və otelçilik üzrə peşə tədris mərkəzində, QHT-lərin resurs və təlim mərkəzində, uşaq və ailələrə dəstək mərkəzində, digər idarə və müəssisələrdə, ümumtəhsil məktəblərində də Xocalı soyqırımının 23-cü ildönümünə həsr edilmiş silsilə tədbirlər keçirilmişdir.

**«Qəbələ».**